# Vətən eşqi...

**Mirsəfa Mirbaba oğlu Mirəşrəfbəyli yaşamağı, həyatı çox sevsə də İkinci Qarabağ müharibəsində Vətəni, torpağı hər şeydən üstün tutdu. Tarixin haqdan doğulan günü- 2020-ci il 27 sentyabrda əlinə silah alıb odlu- alovlu səngərə atıldı. Nə ölümdən qorxdu, nə də ki, erməni dığasından. Arzusu isə savaş meydanda yağıya qan qusdurub 30 il əsarətdə qalan torpaqları azad etmək idi. Və bu müqəddəs yolda son damla qanına qədər mərdliklə döyüşdü, ömrünün 26-cı ilində şəhid oldu. Bununla illərlə həsrətlə bizi gözləyən əsir Qarabağımızın mətin, xilaskar ərənləri kimi tarixin şərəf səhifəsində iz qoymaqla ölümsüzlüyə qovuşdu.**

Yurdu, torpağı canından əziz bilən Mirsəfa Mirəşrəfbəyli Cəlilabad rayonunun Badamağac kəndində dünyaya göz açıb. Qeyrət qanı, vətənpərvərlik duyğuları, yurda olan məhəbbət eşqi uşaqlıq çağlarında onda formalaşıb. Orta məktəbi bitirib həyata qədəm qoyandan ağılı, insanlarla ünsiyyət mədəniyyəti, Vətənə sevgisi ona hörmət qazandırıb. Həqiqi hərbi xidmətə yollananda Qarabağın yağı düşməndən azadlığını düşünüb. Cəbhə bölgəsində doğma Azərbaycanın keşiyində durub, ona olan oğulluq borcunu ləyaqətlə yerinə yetirib. Bütün təlimlərdə fədakarlıq, mərd-



lik göstərib. Vətən naminə qürur, heyrət doğuran məqamlarla əsgərlik həyatına dəyər qatıb. Həmçinin erməni dığalardan qisas alacağı günü də intizarla gözləyib. Elə Vətənin yaşaması üçün ömrünü hərbiyə bağlayıb. 2016-2020-ci illərdə Daxili Qoşunların "Pələng" və bir müddət "Şahin" Xüsusi Təyinatlı Dəstələrində xidmət edib, məqamında düşmənə gücünü göstrməkdən ötrü hərbin sirlərini mükəmməl öyrənib.

Daxili Qoşunların çavuşu olan Mirsəfa Mirəşrəfbəyli 27 sentyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi·bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılda, Füzulidə gedən ağır döyüşlərdə qəhrəmanlıq səhifəsi yazıb. Erməni silahlı birləşmələrinə sarsıdıcı zərbələr endirməklə onların kabusuna çevrilib. Hər günü zəfərlə başa çatan qəhrəman Vətən sevdalısı oktyabrın 11-də Füzulidə həyata keçirilən hücum zamanı dığaların xain gülləsinə tuş gələrək şəhadətə ucalıb. Əbədi olaraq Cəlilabad rayonunda sevdalandığı torpağın sinəsinə baş qoyub. Dövlət tərəfindən "Vətən uğrunda", Füzulinin, Cəbrayılın, Xocavəndin azadlığına görə medalları ilə təltif edilib.

Mirsəfanın şərəfli ölümü Vətəninə, millətinə başucalığı gətirdi. Milyonların ürəyində özünə yer edən bu qəhrəman daim xatirələrdə yaşayacaq.

**Zəfər ORUCOĞLU**

***Vətənin qəhrəman oğlu...***